**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№276/3** **26 may 2016-cı il**

**"Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransa təqdim olunmuş məruzə və tezislər üzrə hazırlanmış tövsiyələr barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2016-cı il 12 aprel tarixli 1/12 saylı sərəncamının 10-cu bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Auditorlar Palatasının 20 illik yubileyinə həsr olunmuş "Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri" mövzusunda 2016-cı il 4-5 aprel tarixlərində keçirilmiş beynəlxalq elmi-praktik konfransa təqdim olunmuş məruzə və tezislər üzrə işçi qrupu (Q.Bayramov, N.Talıbov, M.Abbasov, S.Gülməmmədov) tərəfindən hazırlanmış tövsiyələri müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri" mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfransa təqdim olunmuş məruzə və tezislər üzrə hazırlanmış tövsiyələr bəyənilsin (əlavə olunur).
2. Auditorlar Palatasının rəhbərliyinə tapşırılsın ki, bu tövsiyələrdə nəzərdə tutulan tədbirlərin reallaşdırılması məqsədilə Palatanın cari və gələcək iş planlarında konkret işlərin həyata keçirilməsi, zəruri hallarda isə baxılmaq üçün müvafiq qurumlara göndərilməsi təmin edilsin.
3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova və sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, tövsiyələrin ingilis və rus dillərində tərcüməsini və Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**